# “Şəhid Cavidimin qəhrəmanlıq dastanı” kitabının təqdimatı








**İmişlidə şəhid baş leytenant Cavid Səfərlinin anası Xatirə Səfərlinin övladının əziz xatirəsinə həsr etdiyi "Şəhid Cavidimin qəhrəmanlıq dastanı" adlı kitabın təqdimatı keçirilib. Tədbirdə hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidin ailə üzvləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak edib.**

Əvvəlcə 44 günlük Vətən müharibəsində canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Elçin Rzayev şəhid Cavidin şərəfli ömür yolundan danışaraq bildirib ki, Cavid Səfərli 1993-cü il may ayının 31-də İmişli rayonunun Əliqulular kəndində dünyaya göz açıb. Namiq Şirinov adına İmişli şəhər 5 saylı tam orta məktəbində təhsilini bitirdikdən sonra C.Naxcıvanski adına Hərbi Liseydə təhsil alıb. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub və 2014-cü ildə təhsilini başa vurub. Leytenant rütbəsi alan Cavid Səfərlinin çətin və şərəfli zabit həyatı başlayıb. Ordumuza layiqli zabit kimi yetişməyi qarşısına məqsəd qoyan Cavid Səfərli 2014-2015-ci illərdə Tədris-Təlim Mərkəzində hərbi təhsilini davam etdirib. 2018-ci ildə Azərbaycan ordusunun 100 illiyi medalı ilə təltif edilən gənc zabit Cavid Səfərli Qusar şəhərində yerləşən N saylı hərbi hissədə zabit kimi xidmətə başlayıb, Tabor komandirinin müavini vəzifəsinə yüksəlib. Cavid 2020-ci il 27 sentyabrdan başlayan II Qarabağ müharibəsinin ilk günündən Füzuli və Cəbrayıl rayonlarının düşmənlərdən azad olunması uğrunda gedən döyüşlərdə vuruşub. 21 oktyabr 2020-ci ildə, Xocavənd rayonunun strateji əhəmiyyətli Qırmızı bazar qəsəbəsi istiqamətində yerləşən Düdükçu kəndi uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olub. Elçin Rzayev qeyd edib ki, Ali Baş Komandan İlham Əliyevin "İrəli!" əmrini layiqincə yerinə yetirərək Vətən torpaqlarının ərazi bütövlüyünü bərpa edən hərbçilərimizə, əsgərlərimizə, canından keçən şəhidlərimizə, sağlamlığını itirən qazilərimizə, onların ailə üzvlərinə diqqət artırmaq, qayğı göstərmək hər birimizin borcudur.

YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev bildirib ki, şəhidlik uca və əlçatmaz zirvədir. Hər kəs bu zirvəyə yüksələ bilmir. Torpaq, Vətən, yurd sevgisi, el-obaya bağlılıq hissi güclü olan, Vətəninin hər qarışını canından, qanından üstün tutanlar, bu yolda ölümün gözünə dik baxmağı bacaran igid oğullar bu zirvəni fəth edirlər. Həmyerlimiz Cavid Səfərli də belə oğullardan biri idi. 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə gedən döyüşlərdə Cavid Səfərli kimi qəhrəman, vətənpərvər, igid döyüşçülərimizin qəhrəmanlığı sayəsində zəbt olunmuş torpaqlarımız düşmən tapdağından azad edilib, bütün şəhidlərimizin ruhu rahatlıq tapıb.

Tədbirdə şəhidin atası Xaliq və anası Xatirə xanım övladlarının orta məktəb illərindən hərbçi olmaq arzusunu diqqətə çatdırıblar və onun qəhrəmanlığı ilə fəxr etdiklərini bildiriblər. Ailələr adından göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti,



Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin minnətdarlıqlarını bildiriblər.

Digər çıxış edənlər şəhidlərin xatirəsinə yazılmış kitabların gənclər üçün vətənpərvərlik nümunəsi olduğunu qeyd ediblər.

**Ərəstun ABDULOV,**
**"Respublika".**